**Mövzunun aktuallığı**. Dünya ədəbiyyatı tarixi yazıçılar tərəfindən istifadə olunmuş, "səyyar süjetlər" adlanan, çoxsaylı nümunələri ilə doludur. Xəsis obrazının müxtəlif modifikasiyaları da bu sıradan istisna deyil. Bu obraz Rusiya, Azərbaycan və Avropa ədəbiyyatının ən görkəmli nümayəndələrinin, bir çox əsərlərinin əsas süjet xəttini təşkil edir. Və bu da təsadüfi deyil, çünki yığımcıllıq prosesi adətən bir maniakal ideyaya çevrilir, tez bir müddət ərzində insan şüurunu ələ alır, onun iradəsini boğmağa çalışır. Belə ki, yığımcıllıq ehtirası qəhrəmanın həyatında dominanta çevrilir, lakin bu xüsusiyyət mövzuya müraciət etmiş yazıçılara görə, şəxsiyyətin əxlaqsızlıq kimi təhlükəli yola sürüklənməsini qaçılmaz edır. Tənqidi təhlil üçün ayrılmış sərvət və yoxsulluq münaqişəsinə həsr olunan əsərlərdə bəzən konfliktin komik həll olunmasını müşahidə edirik, lakin daha çox xəsisin biabırçı ölümünə gətirib çıxaran sonluğa rast gəlirik. "Yığımcıllıq üçün yığımcıllıq" prinsipi ilə yaşayan xəsis varlıların dərin daxili düşgünlüyü bu az saylı insan təbəqəsini əxlaqsız ideologiya daşıyıcısına çevirir və onlar ətrafdakılar üçün bədbəxtlik mənbəyi olurlar.

Qeyd etmək lazımdır ki, xəsis obrazı müxtəlif məna çalarlarına görə dəyişərək, bədii əsərlərin strukturunda və dünya xalqlarının kollektiv şifahi ədəbiyyatında yer alır. Bu obraza tez-tez nağıllarda, qəhrəmanlıq dastanlarında (eposlar), macəra məzmunlu novella, hekayə və povestlərdə, tarixi abidələr və salnamələrdən hissələrdə rast gəldiyimiz üçün, xəsis obrazının arxetipi haqqında danışmağa imkan yaranır.

Bu obraz, onun folklor əsərlərindən başlayaraq, antik dövr ədəbiyyatında, Orta əsrlər, İntibah dövrü, romantizm, realizm dövrü dünya ədəbiyyatında inkişafı və transformasiyası ayrıca araşdırma mövzusu olmayıb. Buna görə də, hazırkı tədqiqat işi əhəmiyyəti və mövzunun **aktuallığı** ilə fərqlənir.

**Tədqiqatın obyekti.** Tədqiqatın əsas obyekti ümumiyyətlə bu mövzuya maraq göstərən Rusiya, Azərbaycan və Avropa (ingilis, fransız) yazıçılarının bir sıra əsərləridir. Bu V.Şekspirin, J.-B.Molyerin, A.S.Puşkinin, N.V.Qoqolun, A.N.Ostrovskinin, Ç.Dikkensin, Onore de Balzakın, M.F.Axundovun, N.Vəzirovun və digərlərinin əsərləridir.

Belə ki, bu mövzuya müraciət edən şair və yazıçıların siyahısı kifayət qədər genişdir. Əlbəttə ki, onların birləşdirilməsi, təsnifatı və standartlaşdırılması kimi təbii sual yaranır. Bu məqsədlə xəsis obrazı yalnız

ədəbi birliklərin fərdi sisteminə deyil, həm də müəyyən bir tarixi dövrdə mövcud olan konkret cəmiyyətdə həmin əmtəə-pul münasibətlərinə daxil edilmişdir. Qeyd etmək vacibdir ki, tarixi davamlılığın xarakterik fakt və hadisələrinin, mövzulardakı ən yeni bədii formaların xüsusiyyətlərinin təhlili də dissertasiyanın tədqiqat obyektini təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti bədii əsərlərdəki xəsis obrazı və onun modifikasiyalarıdır.

**Mövzunun işlənilmə dərəcəsi.** Bu yazıçıların yaradıcılıqlarının öyrənilməsi ilə A.M.Revyakin, S.I.Maşinski, D.D.Oblomiyevski, L.N.Savelyeva, S.M.Bondi, T.Q.Bogolepova, V.E. Vetlovskaya, İ.M.Katarski, R.A.Reznik, S.M.Şervinski, C.N.Çesterton və s. kimi, görkəmli xarici və rus ədəbiyyatşünasları məşğul olmuşlar. Lakin, bu alimlərin monoqrafiyalarının müvafiq bölmələrində və ya məqalələrində bizi maraqlandıran problemlə bağlı yalnız qısa məlumat var. Eləcə də M.Rəfilinin, F.Qasımzadənin, C.Cəfərovun, K.Məmmədovun tədqiqat işləri də vardır. Lakin, dünya ədəbiyyatında Xəsis bir arxetip obraz kimi, hələ tədqiq edilməmişdir. Bu mövzu ilə bağlı fundamental tədqiqatlar yoxdur. Bu baxımdan, bu problemin öyrənilməsi, yəni xəsis obrazı və onun bədii ədəbiyyatda arxetip kimi modifikasiyası xüsusi əhəmiyyət və vaciblik kəsb edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi dünya xalqları folkloru timsalında, bir tərəfdən dünya ədəbiyyatındakı xəsis obrazının davranışının psixoloji motivlərinin təyin edilməsi, digər tərəfdən isə adı çəkilən yazıçıların bədii əsərlərinin müəyyən edilməsidir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələrin** həll olunması nəzərdə tutulur:

- Kollektiv şüur mənşəyində, folklor və yazılı ədəbiyyatda, xəsis obrazının bədii işlənilməsini müəyyən etmək;
- T.Plavtın"Xəzinə" antik komediyasının mifo-poetik əsasını təyin etmək;
- Rus və Azərbaycan şifahi xalq ədəbiyyatında və dünya ədəbiyyatında xəsis obrazının modifikasiyasının əsas aspektlərini göstərmək.

**Tədqiqat işinin metodu**. Qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün elmi-tədqiqat kompleksi metodlarından istifadə etməklə, əsasən müqayisəli təhlil üsulundan istifadə olunmuşdur.

**Tədqiqat işinin elmi yeniliyi.** Bu tədqiqatın elmi yeniliyi ilk növbədə onun kifayət qədər öyrənilməməsi ilə müəyyən edilir. İlk dəfə xəsis obrazı ardıcıllıqla təhlil olunmuşdur. Yəni, bu obrazın mənbəyi tərə-

fimizdən, ilk olaraq folklorda, sonra müxtəlif nəzər nöqtələri araşdırılaraq, şifahi xalq ədəbiyyatının bir neçə janrlarında və son olaraq dünya bədii ədəbiyyatından çoxsaylı nümunələrdə təsdiq olunmuşdur. İkili rakursdan yanaşma diametral şəkildə fərqli xarakterləri bir arxetip kimi tipikləşdirmək və prototip yaratmağa icazə vermişdir. Belə ki, Xəsis, dünya ədəbiyyatında ciddi sıralanmaya məruz qalmış və nəticə etibarı ilə təqdim olunan işin yeniliyi müəyyənləşmişdir.

**Tədqiqat işinin nəzəri əhəmiyyəti.** Xəsis obrazına əlavə etdiyimiz müqayisəli ştrixlər, janrların daxili potensialına bir daha dərindən nəzər yetirməyə imkan verir. Məhz antik müəlliflərin Roma poemalarında olan ("Xəzinə" Plavt) mifoloji baxışları, dünya ədəbiyyatında əsas yer tutan xəsis obrazının bəzi ənənəvi xalq elementlərini özündə birləşdirməsi və bir janrdan başqa janrın fərdi komponentlərinə çevrilməsi ideyası, bizi bu fikirə yönəltdi. Belə ki, ədəbi tipaj kimi xəsis iki tərəfdən göstərilmişdir: bir tərəfdən qənaətcil torpaq sahibi və digər tərəfdən – mənfi enerji daşıyıcısı, ailəsinə qarşı zalım olan, cəmiyyətdə isə bir monstr kimi verilmişdir.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın əsas müddəaları və nəticələri Rusiya, Azərbaycan və Avropa yazıçılarının əsərlərinin öyrənilməsində, filologiya fakültələrinin mühazirə kurslarında, eləcə də XIX-XX əsr ədəbiyyatının tədrisi üçün dərslik və dərs vəsaitləri hazırlanmasında istifadə edilə bilər.

**Dissertasiyada müdafiəyə təqdim olunan müddəalar.** Tədqiqat işində müdafiəyə təqdim olunan müddəaları aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Xəsis obrazı qabarıq şəkildə Rusiya və Azərbaycan məişət, satirik və macəra-novella xarakterli nağıllarda və digər janrlarda öz əksini tapmışdır. İki başlanğıc sintezi bu obrazın eyni zamanda standartlaşmış və arxetipik olması qənaətinə gətirib çıxarır. Bu müddəa nəinki qədim zamanlarda, həm də Avropa İntibah dövründə, xüsusən Şekspirin "Venesiyalı tacir" əsərində öz güc və təsirini qoruyub saxlayır. Onun fenomenallığı sayəsində, bu obraz oxucuda xəsisliyə açıq nifrətə və eyni zamanda fəlsəfi düşüncələrə səbəb olur.

2. Çarlz Dikkens və Onore de Balzak, xəsis obrazının təsvirində eyni yol tutduqlarından mifoloji əsaslara və xalq təcrübəcinə məhəl qoymamışlar. Lakin, qroteskə müraciət edərək, onlar ictimai ideologiya, didaktika məsələləri və əxlaqi baxışlarında fərqlənirdilər. Çarlz Dikkens hesab edirdi ki, zəngin və xəsislərin vicdanı yalnız onların ürəkləri yumşaldıqdan sonra

oyanacaq. Onun fikrincə, yalnız bu zaman iki cəmiyyət arasında istənilən qarşılıqlı anlaşmaya nail olmaq olar. Onore de Balzak, "Hobsek" və "Yevgeniya Qrande" romanlarında bu illüziyadan tamamilə ayrılır. Bu əsərlərində, o, təminatlı əhali təbəqəsi tərəfindən, hər hansı bir real xeyriyyəçiliyin mümkünsüzlüyünü hərtərəfli sübut etmişdir. Sələmçilər sentimentallıqdan tamamilə məhrum edilir; yığımcıllıq hissi isə, bütün digər hisslərin qarşısını alır və faktiki olaraq, sələmçiləri insanlığın demiurqları edir.

3. Onore de Balzak "Xəsis" komediyasının müəllifi Molyer haqqında həvəslə danışırdı. Şəxsiyyət konsepsiyasının öyrənilməsi metodologiyasında fərqli cəhətlərə baxmayaraq, realist yazıçı bir çox digər rəssamların təsvir etdiyi xəsis obrazının davranışını klassisistik yanaşmadan izah edir. Eyni zamanda Molyerin xəsisi milliliyi qədər də ümuminsani xarakter alır. Komediyanın əsas xarakteri – Qarpagon ticarət-kommersiya və ya sələmçilik fəaliyyəti ilə mürəkkəbləşməmiş, tamamilə siyasiləşməmiş, faktiki olaraq hər hansı bir ideoloji klişelərdən azaddır. Buna görə də bu obraz geniş oxucu və tamaşaçı kütləri üçün asanlıqla başa düşülən və əlçatandır. Lakin, Onore de Balzakın eyniadlı romanındakı Hobsek obrazını XIX əsrin birinci yarısında Fransa kapitalının əsas hərəkət qanunlarından ayırmaq olmaz.

4. Puşkinin yaradıcılığında xəsis obrazı maksimum lakonik və eyni zamanda, zadəganların həyat tərzindəki çatışmazlıqların qlobal ümumiləşdirilməsi kimi verilmişdir. N.A.Ostrovskinin komediyalarında xəsislik ideyasının əsas xüsusiyyətləri tacirlər və mülkədarların özbaşınalığı vasitəsi ilə verilir. Müvafiq olaraq, M.F.Axundov və N.B.Vəzirovun komediyalarında olan tacirlər – Hacı Qara və Hacı Qəmbər arasında tematik paralellər təyin edilmişdir. Avropa və rus realist nəsrində xəsis obrazının təsvirlərindən fərqli olaraq, bu yazıçıların əsərlərində, “qanlı cinayətlər” təsvir edilməmişdir. M.F.Axundov və N.B.Vəzirov maskaları ataraq, onların əsl üzünü ortaya çıxarmağa çalışırlar. Eyni zamanda, yazıçılar incə istehza ilə vurğulayırlar ki, tacirlər hiyləgər fəndləri və saxtakarlıqları ilə, bir tərəfdən əvvəldən olmuş əsaslı kapitala arxalanaraq və digər tərəfdən – xəsislikləri səbəbiylə bir müddət üstünlüyü saxlaya bilirlər.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işinin nəticələri ilə bağlı Bakı Slavyan Universitetinin Dünya ədəbiyyatı kafedrasının iclaslarında, Respublika və Beynəlxalq konfranslarda məruzələr edilmiş, bilavasitə mövzu ilə bağlı müxtəlif jurnallarda 10 məqalə çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə dissertasiya mövzusunun aktuallığı, məqsəd və vəzifələri əsaslandırılaraq müəyyənləşdirilir, tədqiqatın obyekti, predmeti və elmi yeniliyi dəqiqləşdirilir, onun nəzəri və təcrübi əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, eləcə də tədqiqatın yerinə yetirilməsində istifadə olunan metodika, tədqiqat işinin aprobasiyası təqdim olunur.

Dissertasiyanın əsas konsepsiyası insan xəsisliyi və tədqiqat üçün seçilmiş bütün bədii əsərlərdə, habelə salnamələrdə bu xüsusiyyətin çoxsaylı növ və variasiyalarının öyrənilməsidir.

Dissertasiyasının birinci fəslində **«Xəsis obrazının yaranma mənbələri və dünya ədəbiyyatında onun bədii təsvirinin çalarları (qədim dövr – klassisizm dövrü)»** bir neçə tarixi dövrləri (qədim zamanlardan klassisizm dövrünə qədər) əhatə edilmiş və ilk olaraq, dünya xalqlarının folklorunda sərvət və xəsislik mövzusunun müxtəlif versiyaları təqdim olunmuşdur. Əyalət hakimlərinin rüşvətxorluğu mövzusunda nağıllar bu baxımdan ən yaxşı nümunələrdən sayıla bilər. Onlar, dünya folklorunda xəsislik mövzusunun bir çox variasiyalarının əsasını təşkil edir. (Troitsko-Sergiyev lavrasının nəsihətlər toplusundan "Zəngin və yoxsul haqqında hekayə" və digər qədim dövr abidələri). Eyni mövzu tam olaraq, XVII əsrin əvvəllərində əlyazma ədəbiyyatında özünü göstərir. (Bov Koroleviç və Yeruslan Lazareviç haqqında hekayə-nağıllar). Həmin əsrin sonunda, siyasi hadisələrdən sonra ilk yazılardan olan, Qəzəbli İvan haqqında əfsanəvi hekayələrdə, əsasən xəsis və tamahkar rus boyarları göstərilirdi.

Dissertasiya işində tanınmış "Yerş Yerşoviç haqqında hekayə" əsərinə xüsusi diqqət ayrılmışdır. Tənqidi ədəbiyyatda əsasən, bu əsərin əsas mövzusunun hiyləgərlik və oğurluq olduğu qeyd edilirdi. Biz isə, öz növbəmizdə, bu əsəri XVII əsrin əvvəllərində genişlənən siyasi əlaqələrlə birləşdirərək, xəsisliyin bu halda böyük siyasi rezonans əldə etdiyini təyin etmişik. Hiyləgərlik və oğurluqla paralel tədricən xəsislik mövzusu yer alırdı. Qeyd etmək lazımdır ki, bu öz əksini alleqorik təmsillərdə tapırdı.

Araşdırmalara görə, rus salnamə ədəbiyyatında xəsis obrazı – qədim dövrdən XVII əsrə qədər – xüsusi bir mövzunu təşkil edir. Birincisi biz bu mövzunun, bizdən əsrlər boyu uzaq insanların, böyük və həddən artıq müxtəlif sosial-mülkiyyət problemlər təsəvvürünün bir hissəsi olduğunu göstərdik. İkincisi, zaman keçdikcə sərvət və xəsislik mövzuları əhəmiyyətli dərəcədə bədii dəyişikliklərə məruz qalırdı. Məhz XI-XII

əsrlərdə, iş prosesi o qədər səmərəsiz idi ki, Rusiyada əhalinin zəngin təbəqəsinin qazancı, işlək insan kütləsinin qazancından o qədərdə fərqlənmirdi. Bu ona gətirib çıxartdı ki, bir sıra salnamə mənbələrində dilənçilər zənginlərlə demək olar ki, "yanaşı" oldular.

Bu fikrin isbatı üçün bir sıra əlyazmalar nümunə üçün gətirilmişdir, onlardan diqqəti çəkən Kiril Turovskinin “Rəbbin meracı haqqında söz”(XI əsr) əsəridir. Tənqidi təhlil göstərdi ki, şifahi xalq yaradıcılığının bu əsərində “kiçiklərlə böyüklər, yaxşılar və xəsislər, kasıblar və zənginlər, kölələr və azad olanlar, qoca kişilər və cavanlar, ailəli və subaylar, əli körpəli analar və yetimləri qalmış dul qadınlar” sadalanır. Deməli, bu əsərdə hər kəs var – yalnız sosial təbəqələrdən başqa. XII əsr abidələrində “yoxsulluq" və "zənginlik" kimi anlayışların ictimailəşməsi də qeyri-müəyyən qalmışdı. Orta əsrlərin əvvəllərində Rusiyada sosial mülkiyyətlə bağlı anlayışlar ümumilikdə öz sadəliyi ilə fərqlənirdilər. Adətən, salnaməçilərin sərvət və ya yoxsulluq, tamahkarlıq haqqında hesabatlarında mövcud qaydaların əbədi olaraq sarsılmazlığı bildirilirdi. "Bir atanın oğluna sözü" abidəsində deyilir: "Zəngin ... və ya kasıb, və ya xəsis, - hamını Allah yaratdı"[1].

Xəsis obrazının şifahi ədəbiyyatda ayrı və mühüm səhifə açdığı aydın olurdu. Və qeyd etmək lazımdır ki, bu obraz kollektiv şüurda başqaları ilə yanaşı, bütün arzu və ümidləri ilə, sevinc və acıları ilə, axtarışlar və səhfləri ilə əsrin canlı salnaməsi kimi dərk edilirdi.

Nəhayət, birinci hissəsinin sonunda bəzi Rusiya, Azərbaycan və Avropa nağıllarında xəsislik mövzusu təhlil edilir. Tacirlər, keşişlər, qazilər, kahinlər, kəndxudalar – bir sözlə xəsis obrazı müxtəlif təbəqələri təmsil etmişdir.

Şifahi xalq yaradıcılığının əsərlərinin əsas qəhrəmanları "zəngin mağazaları" olan, "dəbdəbəli otellərdə gəzən" qraflar və qraf qızları, generallar, polkovniklər zəngin və tamahkar tacirlərdir. Onlar üçün bir qayda olan, başqalarının kasıblaşması hesabına öz var-dövlətini artırmaq, yəni həyat qanunlarına uyğun yaşam tərzini sürmək, bu obrazların ünsiyyət stilini göstərməyə imkan yaradır. Bu stil son dərəcə "zərif", xarakterlər isə bəzən, təəccüblü görünsə də sentimental idi.

---

[1] Гудзий Н.К. История древнерусской литературы. М.: Просвещение, 1953, 367 с.

Bizim seçdiyimiz mövzu aspektində bu obrazların belə bir geniş və rəngarəng qalereyasını sistemləşdirməyə ehtiyac duyulur. Əvvəlcə biz bu obrazda dünya xalqlarının sıravi və orta kütlənin ümumiləşdirilmiş xüsusiyyətlərini tapmağa çalışdıq. Növbəti mərhələ patriarxal-mülkədar dövlətin, ticarət sahəsində yüksək mövqe tutan və ya dini rütbəsi olan - bədii xəsis obrazlarına keçiddir.

Belə ki, xəsis obrazı dünya xalqlarının folklorunda müxtəlif rakurslardan verilir, lakin bu obrazın yalnız fantastik hekayə çərçivəsində, müqayisələr sisteminin tətbiqi nəticəsində təhlili mümkün olmuşdur. Və bununla belə, xəsis obrazı məişət və macəra nağıllarında insanların kədərini mənfi tərəfdən vurğulayır. Beləliklə, həqiqət və yalan arasında mübahisə kimi verilən antinomiyalar, xəsis obrazını canlandırır. Əlbəttə ki, qələbə həmişə həqiqətin tərəfindədir. Hekayə edən həmişə, tacir oğlu, kargüzar, təlxək, və ya fəndgir oğru və s. tərəfindən aldadılmış yoxsul və kasıb adamın tərəfindədir.

Əgər istisnasız olaraq, bütün nağıllarda qanunauyğun şəkildə xeyir-şər üzərində həmişə qələbə çalırdısa, qeyd olunan invariantlarda kasıb insan hər zaman qəddar və tamahkara qalib gəlir. Nağılların təhlili xəsis obrazının arxetipik olduğunu göstərir.

Digər tərəfdən, burada xəsis obrazının dünya bədii ədəbiyyatında əsas mənşəyinə aydınlıq gətirilir. Bu baxımdan, ilk növbədə xəsis mövzusunda yazan “birincilərdən” - Roma dramaturqu Tit Mak Plavtdır. O, səhnədə bir sıra xarakterik komediyalar yaratmışdır, o cümlədən də tənqidi təhlili zəruri olan "Xəzinə" əsərinin müəllifidir. Bu komediyanın təhlili ilə əlaqədar qeyd etmək lazımdır ki, antik dövrdə keçmiş mədəni irsin və Roma ədəbiyyatının müasir meyllərinin vəhdəti, əsasən onun xəsislik mövzusunda yazdığı "Xəzinə" komediyasında əks edilir.

Bu bölmədə ilk olaraq, Roma və ellinistik sivilizasiyalarının elementlərini bir kompleks şəklində birləşdirən və qədim mədəniyyətinin əsas xüsusiyyətləri göstərilmişdir. Bu sintez bizi insan təbiətinin xəsisliyinə qarşı qoyulan ləyaqət və səxavət kimi ən adekvat xüsusiyyətlərinin axtarışına sövq edir. Bu fəsildə və bütövlükdə dissertasiyada qeyd olunur ki, Tit Plavt öz oxucuları və müasir tənqidçilərinə, izah etdiyi kimi, "dövlət formaları" tarixən bədii ədəbiyyatla sıx əlaqədədir.

Müəllif öz zamanının ictimai ideologiyasının böhranını məhz var-dövlət və kəskin, barışmaz xəsislikdə görür. Məhz buna görə, şair xəsisliyə rəğmən sülh, xeyirxahlıq, rifah, bərabərlik, ədalət və azadlıq kimi "əcdadı"

ənənələrin, şərəfli keçmişin tezliklə qaytarılması üçün real ümid olmasa belə, xitab edir. Tit Plavtdan başqa, biz Lukretsiy, Siseron və digər qədim dövr görkəmli filosoflarının bu anlamla bağlı müxtəlif siyasi, mədəni və iqtisadi baxımdan fikirlərini təqdim etməyə çalışmışıq. Lakin, obyektiv olaraq, onlar da insan təbiətinin bu cəhətini ciddi bir qüsur kimi, Allah qarşısında günah, kimsəsizlərə qarşı isə bir bəla kimi göstərir.

Beləliklə, qədim zamanlarda sosial təbəqələşmənin, asan yolla varlanmanın əsas səbəbləri və kütləvi kasıblaşmanın mənbələri müəyyən edilir. Tit Plavt dünya ədəbiyyatı tarixində ilk dəfə olaraq öz komediyalarında xəsis obrazını müəyyən etmişdir. Maraqlıdır ki, bu xarakter əsərdə bir zalım və ya qatı cinayətkar kimi verilməyib. Dissertasiyanın növbəti fəsli üçün bu mühüm aspektlərdən biridir. Böyük Roma komedioqrafının yumşaq və incə yumorunda, bəzən o uzaq illərin kəskin və ağrılı məsələlərinin əks-sədaları duyulur. "Xəzinə" komediyasının qəhrəmanı yaşlı adam Evklionun bəxti gətirdi. Belə ki, müəllif sayəsində komediyada göstərilmiş, yayılmış mifoloji hekayə qəhrəmanı, antik dövrdən bu günə qədər bəşəriyyətin əbədi yol yoldaşına çevrildi.

Dissertasiyanın bu fəslinin ikinci paraqrafına görə belə bir qənaətə gəlmək olar: Tit Plavtın komedioqraf kimi, əsas məqsədi tamaşaçını əyləndirmək olsa da, xəsis obrazının yaradılmasında satira da mühüm rol oynamışdır. Yumor ilə bərabər, həm də satira komediyada müəyyən rol oynamışdır. İlk baxışdan T.Plavtın əyləncəli görünən təsvirində incə sarkastik eyhamlar sezilir. Nümunə olaraq xəsislikdən olan-qalan ağlını itirmiş, yaşlı adamın sosial boyalı istehza ilə verilmiş təsvirini gətirmək olar.

Bu mövzu ilə paralel olaraq əsrlər boyu xalq ozanları və professional şairlərin müxtəlif üslublardan, vasitələrdən istifadə edərək, təsvir etdiyi bizim üçün maraqlı olan obraz haqqında danışılır. Kollektiv və ya fərdi ideya baxımından, məqsəd və vəzifələrdən asılı olaraq xəsis obrazı əks qütblü mənalar daşıya bilər və qəsdən komik və ya dramatikləşdirilə bilər. Xalq və ya yazıçı xəsis obrazının müasir cəmiyyətdə mövcudluğunu vurğulayır, bununla belə bu obraz, ənənəvi olaraq əvvəlki tarixi dövrlə bağlıdır. İşin bu bölümündə iki müxtəlif zaman qatlarını birləşdirərək belə bu nəticəyə gəlirik ki, müəlliflər gələcəkdə insan xarakterinin mənfi cəhətlərinin aradan qaldırılmasına çalışırlar. Belə ki, bizim fikrimizcə, şifahi və kollektiv formada yaradılmış orijinal mənbə xalq düşüncəsində, sonradan isə dünya ədəbiyyatında xəsis obrazının məzmununu ortaya çıxarır.

Avropa Renessansı dövründə xəsis obrazı ən qabarıq şəkildə V.Şekspirin "Venesiyalı tacir" komediyasında işlənilmişdir. Bu komediyada, əsas məqsəd yəhudi tacir Şeylokun xəsis xarakterini göstərməkdir. Bu janrda Şekspir, digər əsərlərindən fərqli olaraq sevgi mövzusundan kənara çıxır. Əsərdə iki aləm bir-birinə qarşı çıxır: sevinc, gözəllik, dostluq, alicənablıq bir tərəfdən, tamahkarlıq, hirs və xəsislik dünyası digər tərəfdən. V.Şekspirin bütün əvvəlki komediyalarında yekunda tərəflərin barışığı mümkün idisə (Məsələn, "Protey" əsərində mənfi qəhrəmanın müsbətə dönüşü göstərilir) burada belə final istisna olunur. “Düzgünlər" və "xəsislər" arasında ölüm-dirim müharibəsi gedir. Beləliklə, Şekspir insanlara və yaşam tərzinə iki fərqli münasibətini göstərir.

Tacir Şeylok tipik sələmçidir, senatın gözündə "qanunpərvərdir". V.Şekspir tarixi həqiqətdən uzaq deyil. Şeylokun cəmiyyətdə heç bir digər sosial statusu, adı və hətta hərfi mənada belə bərabər hüququ yoxdur, onun başqa seçimi yoxdur. Azad ticarət bu sinif insanlar üçün yeganə peşədir və siyasi hüquq və azadlıqlarının məhdudlaşdırılması yalnız onların xarakterinə xas olan xəsislik xüsusiyyətini inkişaf etdirir.

Amma xəsis Şeylok əslində faktiki olaraq işi uduzmağa məhkumdur, və bu ümidsiz hücumlardan sonra aydın olur. Məhkəmədə rəsmi şəxs kimi geyinmiş Porsiyanın körpə müzakirəsinə bənzər nitqini təkzib etmək heç də çətin deyil. Eləcə də, Venesiya dojının "qan və bir funt kəsilmiş ət" haqqında sözləri gerçək kimi qəbul etməsi tənqiddən kənar qalmır. Bu müəllifin incə duyma qabiliyyətini göstərir. V.Şekspir qəsdən işgüzar vasitəçiləri qadın obrazlarında təqdim edərək məhkəmənin sonuncu səhnəsini bir yüngül komediyaya, farsa çevirir. Belə ki, onların gülünc davranışı Şeylokun xəsisliyini və yırtıcı əlamətlərinin çalarlarını daha aydın göstərməyə imkan verir. Lakin, Şeylokun ciddi olaraq həyata keçirmək istədiyi komik niyyətləri puç olur.

Bu fəslin son paraqrafı J.-B.Molyerin eyni adlı komediyasında xəsis obrazının (Qarpaqon) əsas xüsusiyyətlərinə həsr olunub.

Komediyanın əsas qəhrəmanı XVII əsrə aid müəyyən ideya daşıyıcısı olsa da, bir çox Avropa və rus tənqidçiləri bu obrazın psixoloji əlamətlərlə mürəkkəbləşmədiyi fikrindədirlər. Molyer zamanının sosial çevrilişlər ilə bağlı olan bir xarakter yaratmağı özünə əsas məqsəd qoymamışdı. Klassik qanunlara uyğun olan Qarpaqon obrazı şəxsiyyətin daxili potensialından yaranmışdı. Bununla o, Fransa və Avropa kapitalının hərəkətindən təcrid olunmuş halda təhlili mümkünsüz olan Balzakın Hobsekindən kəskin

şəkildə fərqlənir. Amma Molyerin xəsisi məhz elə milli koloriti olmadan aydın, cəlbedici və başa düşüləndir.

Dissertasiyada Puşkinin Molyer yaradıcılığına münasibəti, eləcə də şairin xəsisliyi bir qüsur kimi görməsi verilir. Bundan əlavə, Onore de Balzakın digərlərindən fərqli olaraq, J.-B.Molyer dahiliyinə daha dərindən nüfuz etməsi qeyd edilmişdir, çünki Balzakın yaşadığı müasir cəmiyyətin siyasi və ideoloji mövqeyinin bir sıra əhəmiyyətli aspektləri ilə oxşar idi.

Nəticə olaraq, biz aşağıdakı faktı təsdiq etdik: hər hansı sosial və ya şəxsi münasibətlərin formasından asılı olmayaraq, böyük humanistlər həmişə bütün insanların fikir və hiss etmə azadlığını, hər kəsin hüququnun təbii bərabərlik ideyasını müdafiə edirdilər. Həmçinin davranış tərzinə görə tamamilə fərqli olan qəhrəmanlar təhlil edilmiş, açıq nifrət yaradan və ya düşündürə biləcək dərin fərdi xarakterlər verilmişdir. Klassisizm dövründə xəsis arxetipini "yeni redaksiyada" J.-B.Molyer yaratmışdır. Burada xəsis (Qarpaqon) Fransanın yeni dövrünün xüsusiyyətlərini əks etdirmiş, Avropa zadəgan təbəqəsinin ənənəvi aspekti fonunda göstərilmişdir.

**«XIX əsr realist ədəbiyyatında xəsis obrazı»** adlanan ikinci fəsildə realist ədəbiyyatında xəsis tipi araşdırılır. Məhz şifahi xalq ədəbiyyatının müxtəlif növ və formalarında mövcud anlayışlar, sosial və bədii əhəmiyyəti oxşar və demək olar ki, bərabər olan var-dövlət və xəsislik motivləri güclənir. Lakin, burada əsasən XIX-XX əsrin əvvəllərinə aid poemalar, pyeslər və romanlarla məhdudlaşaraq, xronoloji çərçivələr maksimum daralmışdır. Belə ki, işdə A.S. Puşkinin ("Xəsis cəngavər" kiçik faciəsi), N.V.Qogolun ("Ölü canlar" poeması), M.F.Axundovun ("Sərgüzəşti mərdi-xəsis", "Hacı Qara" komediyası), N.B.Vəzirovun ("Yağışdan çıxdıq, yağmura düşdük" komediyası), A.N.Ostrovskinin ("Tufan" dramı), Ç.Dikkensin ("Dombi və oğlu" romanı), Onore de Balzakın ("Hobsek" povesti) və bir sıra başqa yazıçıların əsərlərinin əsas qəhrəmanlarının tənqidi təhlili verilmişdir.

İşin müvafiq bölmələrində lokal məkan və zaman çərçivəsi ilə əlaqədar olaraq xəsis obrazı əsasən folklor köklərindən ayrılmışdır, elə buna görə də ictimaiyyətin ideoloji mübarizəsinə fəal cəlb olunmuşdur. Məsələn, Molyer və T.Plavtın komediyalarındakı xəsis obrazının davranışını sonrakı nəsillər üçün anlamaq daha asandır, çünki o, siyasiləşdirilməmişdir. Əksinə, Balzakın Hobsekini və ya Dikkensin cənab Dombisini heç bir halda süni şəkildə XIX əsrin ortalarında Avropadakı əmtəə-pul münasibətlərindən ayırmaq olmaz.

Belə ki, ikinci fəslin məqsədi XIX əsrin realist yazıçılarının dünyagörüşündən asılı olaraq, xəsis obrazının dinamikasını müəyyən etməkdir. Hazırki işdə, xəsis obrazının arxetipi rus, ingilis, fransız və Azərbaycan ədəbiyyatının bir sıra əsərlərinin nümunəsində göstərilir. Tənqidi təhlil Dikkensin "Nikolas Niklbi" və "Çətin zamanlar" romanlarından başlayır. Artıq bu əsərlərdə xəsis obrazı təqdim olunur. Lakin, burada böyük kommersant Ralf Niklbi və acgöz pul hərisi Hredhraynd kimi xəsis obrazları yalnız punktirlə verilmişdir. Bu mövzu yalnız tarixi-fəlsəfi və etik proqramların əsas prinsiplərini ifadə edən, “Dombi və oğlu” romanında parlaq təcəssümünü tapmışdır. Roman işıq üzü gördükdən sonra, yazıçı xəsislik və şöhrətpərəstliyin faciəvi nəticələrini göstərmək istədiyini etiraf etmişdi. Bu mənfi əlamətlər böyük bir firma rəhbəri, cənab Dombi-ata obrazında təcəssüm olunmuşdur. Bu insanın xəsisliyi elə bir dərəcəyə çatmışdır ki, onun bütün digər keyfiyyətləri silinmiş və yaxınları üçün bədbəxtlik mənbəyinə çevrilmişdir. Amma əslində, söhbət mənəvi degenerasiyadan gedirdi və bu mövzu görünməmiş gücü ilə Balzakın "Yevgeniya Qrande" və "Hobsek" romanlarında səslənir.

Balzak hətta xəsisin ilk əlamətlərini antikvarın obrazında ("Şaqren dərisi") görür və sonra o, ötəri bu mövzuya "Polkovnik Şaber", "Türk keşişi" və "Kənd həkimi" romanlarında toxunur. Lakin, elə burada yazıçı onların davranış motivlərinin ciddi tənqidi təhlili baxımından xeyirxahlığın və altruizmin "düşməni" kimi vermiş, bu obrazların mücərrəd və sxematik olduğunu etiraf etmişdi. Əslində Balzak hələ də zəngin və xəsisləri "qənaətcil" və “bədxərc olmayanlardan”, təvazökarcasına və yavaş-yavaş vardövlət yığan və bu dövləti planlı şəkildə xərcləyənlərdən fərqləndirirdi.

Cənab Feliks Qrande bu qaydanın islahedilməz istisnası idi. Fransada bir çox şərabçılıq müəssisələrinin sahibi, hakim sinfin parlaq nümayəndəsi getdikcə xalqın düşməni olaraq qarşımıza çıxır. İfrat dərəcəyə çatdırılmış xəsislik insanı təhlükəli və qorxunc qüvvəyə çevirir.

“Yevgeniya Qrande” romanında xüsusilə təsbit edilmişdir ki, tamahkar və prinsipsiz insanların xəsisliyinin bəzi detalları onların simvoluna çevrilir. Xəsisin malik olduğu pul və daş-qaş öz müstəqil həyatını yaşamağa başlayırlar. Belə bir qayğısız mövcudluq xəsisliyin məqsədlərinə uyğun olsa da, başqaları üçün bu böyük ağrı-acıya çevrilir. Buna əsaslanaraq Qrandenin xəsisliyinin həyat yoldaşının ölümünə səbəb olması və bütün ailə üzvlərinin həyatında necə fəlakətə çevrilməsi göstərilir.

Bu xətt dissertasiyanın ikinci fəslində tədqiqatın əsas mövzusu olur və Onore Balzakın “Hobsek” romanında davam etdirilir. Feliks Qrande ilə müqayisədə, yeni qəhrəman müəllifin interpretasiyasında artıq “filosofdur”, mənfəət “şairidir”, öz etiqadına sədaqətli xəsisdir. Yazıçı onu “əskinaz-insan” və ya “veksel” adlandırır. İki nəşrin müqayisəli təhlili zamanı əsas ideyalar izlənilmişdir, lakin xəsislik xüsusiyyətinə əsas diqqət verilir. Qızıl – onun sevinci və fetişidir, əbədi ibadət predmetidir, müntəzəm kommersiya hissəsini əldə etmək üçün onu mərhəmətsiz bir xəsisə, asanlıqla insanların həyatına müdaxilə edən bir adama çevirir.

Tədqiqatın əsas məqsədinə uyğun olaraq, xəsis obrazının əsas xüsusiyyətlərinin məhz Hobsek obrazında cəmləşməsi göstərilir, dissertasiyada romanın əsas mətninin geniş şərhi verilir. Müəllif məhz sələmçinin uzaqgörənliyinə xüsusi diqqət yönəltmişdir. Onun dünyagörüşü, öz sözlərinə görə – “Allahın nəzərləridir”. O, iddia edir ki, insanların qəlbində baş verən hər şey görür və onların fikirlərinə nüfuz edir. Hobsek – nə Şekspirin taciri Şeylok, nə Ostrovskinin alverçisi Dikoy, nə də ki, Molyerin komik personajı deyil. O, aristokratiyadan yuxarıya yüksəlməyi bacardı və Fransız kübar cəmiyyətinin həyatı da buna şərait yaratdı. Cəmiyyətin bu bəlalarını ən əvvəl Onore de Balzak özü görür və onun sözləri ilə artıq mənfi qəhrəman danışır.

Hətta O.Balzak romanın ilk redaksiyasında Hobsekə "ictimai qabiliyyət" göstərsə də, bu növ fransız burjuaziyasının demokratikliyini hiss etsə belə, onun tam dəyişməsinə inanmır. Yazıçı uzaqgörənliklə sələmçinin aristokratiya üzərində üstünlüyünü aydın görür, lakin onun hakimiyyətinin real mənbəsini də bildirir. Hobsekin həyatı müxtəlif coğrafi səyahət və macəralarla dolu olduğundan, onun xarakteri möhkəmlənmiş və dəyişmişdir, lakin buna baxmayaraq, müəllif anlayır və aydın şəkildə göstərir ki, Hobsekin mənəvi və intellektual üstünlüyü yalnız öz təbii istedadından irəli gəlmir. O, həm də böyük sərvətə əsaslanır.

“Hər kəsi əlində saxlamaq” – bu şüar sərt, bəzən isə ruhən güclü, bir çox maliyyə əməliyyatlarının taleyini həll edən, lakin əksər halda xəsis insanların şüarıdır. Bu o qədər aydındır ki, A.Ostrovski üçündə mərkəzi ideyaya çevrilir. Dikoyun gücündədir, onun yüksək intellektual inkişafındadırmı? Əlbəttə ki, xeyr. Onun gücü yalnız puldadır, lakin Hobsekin əqli qabiliyyəti rus həmkarı ilə heç cürə müqayisə oluna bilməz və onun bütün mənəvi-etik meyarlarından yuxarıda dayanır. Lakin bu anlayışların kökləri

eynidir. Bu anlayışlarla o, Paris iş dünyasının maliyyə münasibətlərinə daxil olur.

Bir dəfə Hobsek Dervilə deyir: “Mən insanların vicdanlarını pulla almaq və ya nazirləri idarə etmək üçün kifayət qədər zənginəm”[1]. O, özünü qürurla “həyatın hakimi” adlandırır, çünki bir çox başqalarının taleyi onun iradəsindən asılıdır. “Yaxşı əməllər digər nəsillər üçün əks-səda verəcək” – klassik düsturu bu halda onun üçün sanki ilahi taleyə bir hədiyyə kimi başa düşülür. O, bir ilahi elçisi kimi idarə edir. O, öz həyatının və onun sözlərinə görə hər bir “normal insanın” həyatının əsas mənasını qızıl təşkil etdiyindən özünü məhz ali hakim adlandırır. Hobsek Dervil üçün “fantastik obrazdırsa” da, Dervil bu real obrazın hiperbolik həcmini məhdudlaşdıraraq, Balzakın yaratdığı bədii obrazda yalnız “qızıl gücünün təcəssümünü” görür.

Balzak ikinci redaksiyada Hobsek obrazının təsvirində lazımi düzəlişlər etmişdi. Həmçinin xatırladaq ki, birinci şəxs tərəfindən nəql edilən hekayənin adlandırılması, onun birinci redaksiyadan (1842-ci ildə) bir az sonra, “Bəşəri komediya” silsiləsinin “Şəxsi həyat səhnələrinə” daxil edilən zamana aiddir. Biz hesab edirik ki, seçilmiş mövzu ilə əlaqədar bu vacib detaldır. Qeyd olunan Dervil, qrafinya de Resto obrazları və de Tray ailəsi ikinci plana keçir. Əsərdə yalnız mərkəzi xarakterin əsas xüsusiyyəti, yəni xəsislik işıqlandırılır. Balzak indi sələmçinin mənəvi çirkinliyini artıq gizlətmir və qocanın özlüyündə sanki bütün insani duyğuları boğub, yalnız öz "mənində" cəmləşdirməsini, cəmiyyətdən təcridini və özünü təcrid etməsini göstərir. Sərvət axınını hiss etmə qabiliyyəti bu iddialı qəhrəmanda daha dərin, onun əhatə dairəsi isə daha möhtəşəm və genişdir. Təşbihlə desək pul iyi cənab Feliks Qrande ("Ejeni Qrande") kimi onun üçün də eyni dayanıqlıdır. Xəyalpərəst-xəsisdən o, veksel-insana çevrilir, Balzak qeyd edir ki, onun görünüşü “bürünc tökmə idi”.

Beləliklə, Onore de Balzak kəşf etdiyi xəsis obrazlar qalereyası göstərir ki, onun əsas nümayəndələri Feliks Qrande və Hobsek fəal maliyyə və kommersiya əməliyyatları aparırlar. Bu simvolik obrazların xəsisliyi insan birliyinin bütün ağlabatan məhdudiyyətlərini keçir. Rus ədəbiyyatında “səyyar süjet” ənənələri A.C.Puşkin tərəfindən işlənilmişdir. Onun ya-

---

[1] Оноре де Бальзак. Гобсек. Евгения Грандею Отец Горио. М.:Правда, 1979, с.21

ratdığı xəsis obrazı bir cəsarət və şərəf nümunəsi kimi, xəsislik və cəngavərlik anlayışlarını aydın şəkildə ayırmaq imkanı yaradır.

İkinci fəsil və ümumilikdə dissertasiya rus və Azərbaycan realist ədəbiyyatında xəsis obrazının təhlili ilə yekunlaşır. Dahi şairlərin, yazıçıların və dramaturqların yaratdıqları hər bir qəhrəman xəsis obrazının müəyyən növüdür. Məsələn, "Xəsis cəngavərdə" Puşkin üçün sosial məsələlər xüsusi maraq kəsb etmirdi. Mərkəzdə - yalnız ailə dramıdır. Müəllif sanki, müsabiqə üçün öz xəsis obrazını verir. Tənqidçilərin qeydinə görə artıq əsərin adında bir uyğunsuzluq var. Cəngavər xəsis ola bilməz və deməli personaj rəmzi xarakter kimi özündə poetik psixoloji və ideoloji məzmunun, geniş və mürəkkəb bənzətmələrin daşıyıcısıdır.

Plyuşkin obrazının (N.V.Qoqol "Ölü canlar") izahına dissertasiyada qeyri-ənənəvi mövqedən yanaşılır. Birincisi, N.Qoqol tərəfindən xəsis obrazının səciyyəvi xüsusiyyətlərinin məhvedici təsviri bu analogiyanı çətinləşdirir. Burada "yüngül istehzaya" hətta bir işarə belə yoxdur. Doğrudur, əvvəlcə müəllif bizim diqqətimizi mülkədarların kəskin gözə çarpan tipik əlamətlərinə çəkir. Lakin, sonradan onların ailə və cəmiyyətdə davranış məcmusu, inkişaf etmiş xüsusiyyətləri ustalıqla göstərilir. Beləliklə passivlik, qeyri-müəyyənlik, və hədsiz xəsislik yaranır. İkincisi, Plyuşkinin əxlaqsızlığı və cəhaləti fiziki degenerasiyanın maksimum həddinə, "insanda insanlığın" yox olmasına gətirib çıxarır. Üçüncüsü, xəsis obrazının fərdi xüsusiyyətləri "məişət mühiti ilə mülkədarın daxili mahiyyətinin birləşməsi" kimi rus klassikasının novator üsulu ilə tamamlanır (A.İ.Revyakin).

Belə ki, Plyuşkin obrazı ilə N.Qoqolun XIX əsrin ortaları Rusiyasının spesifik aspektindən çıxış edərək xəsislər qalereyasını davam etdirməsi aydın olur. Bu qədim rus tipidir, o, Rusiyadan kənarda mövcud ola bilməz və yazıçı özü də bunu anlayırdı. Bu yalnız öz qurbanlarına təriflər təyin edən təbəqənin psixologiyasıdır. "Ölü canlar" poemasında özünə qapanma, sırtıqlıq, kobudluq, tündxasiyyətlik, eqoizm, hiyləgərlik, əxlaqsızlıq, qəddarlıq və s. xüsusiyyətlərlə xarakterizə olunur. Bütün yuxarıda sadalanan xüsusiyyətlərdən məhz xəsislik üstünlük təşkil edir. Xarakterin bu xüsusiyyəti müəllif tərəfindən elə dərəcədə qabardılır ki, canlı ədəbi qəhrəman artıq yox olur. O, üzünü itirir, silinir. Xəsislik kənd mülkədarı Plyuşkini bir şəxsiyyət deyil, bir maskaya, insana bənzərə çevirir.

A.Ostrovskinin "Tufan" dramında, M.F.Axundovun və N.B.Vəzirovun komediyalarındakı gəc tacirlərin psixologiyası ilə çox oxşardır. Xəsislərin utilitar fəlsəfəsi onların bir şəxs kimi kasad daxili aləmini izah edir.

Bu fəlsəfə bizə əmr etməyə adət edən Dikoy obrazının (A.N.Ostrovski "Tufan") təsviri nümunəsində göstərilmişdir. Xəsis obrazının spesifik xüsusiyyəti olan gəcliyi demək olar ki, nə XIX əsrin birinci yarısı Rus ədəbiyyatı, nə də Avropa mədəniyyəti bilməyib. Bu xəsis obraz tipajını ilk dəfə yaradan A.N.Ostrovski idi. Hobsek kimi onun da hakimiyyəti sərvətə arxalanır. Bu halda, Dikoy Rusiyanın kiçik şəhər sakinləri üzərində hökmranlıq edən cahil, heyvanabənzərə çevrilmiş bir insan nümunəsidir.

XIX-XX əsrin əvvəllərində Azərbaycan realist ədəbiyyatında təsvir edilmiş xəsis obrazları ondan heç geri qalmırlar. İlk növbədə biz M.F.Axundov və N.B.Vəzirovun dramları və komediyalarına müraciət etmişik. Onlar rus tacirləri ilə çox oxşar idi. Çox maraqlı haldır ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində xəsislərin ölməz obrazları ölkəmizin inkişafının sosial-iqtisadi şərtlərinə fəal şəkildə cəlb olunmuşdur. Dissertasiyada M.F.Axundovun "Hacı Qara" və N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyaları təhlil edilmişdir. Qeyd olunmuşdur ki, bu əsərlərdə xəsis obrazı hər şeydən əvvəl xeyirxahlığa xidmət etmək, haqq və ədalətə qulluq etmək nümunəsinin əksini təşkil etdiyi üçün diqqətəlayiqdir. Adıçəkilən komediyalarda biz, bir tərəfdən, şəriət qanunlarına məhəl qoymayan, digər tərəfdən də, yoxsul müsəlmanların olan-qalan varını əlindən alan vicdansız Azərbaycan tacirlərinin mənfur şəxsiyyətinin ön plana çəkilməsinin şahidi oluruq. M.F.Axundov və N.B.Vəzirovun komediyalarının əsas mənfi personajları yaxın adamların hesabına zənginləşmək ümidi yaranan zaman, onları heç bir maneə dayandırmır və onlar heç bir vasitədən iyrənmirlər. Bu səbəbdən hesab edirik ki, Azərbaycan müəlliflərinin sözügedən əsərlərinin tənqidi təhlili, həm ikinci fəslin son bölümünün, eləcə də bütövlükdə tədqiqatın mühüm aspektlərindən biri hesab edirik.

Belə ki, yuxarıda qeyd olunan bütün Azərbaycan, rus və Avropa ədəbiyyatının ayrı-ayrı əsərlərinin misalları əsasında, bir neçə əsr ərzində xəsis obrazının çoxsaylı modifikasiyaları olduğu aydın şəkildə sübut edilir.

Lakin, biz qeyd etdiyimiz kimi, hər obrazın öz individual tərəfi də var. Məsələn, Ostrovskinin əsas personajı – xəsis Dikoy hər hansı ticarət fəaliyyətindən uzaqdır, Azərbaycan dramaturgiyasındakı tacirlər isə ticarət atmosferasına qərq olublar. Dikkensin romanındakı "Dəqiq rəqəmlər nəzəriyyəsi", M.F.Axundov və N.B.Vəzirovun komediyalarında öz təsdiqini və inkişafını tapmışdır. Doğrudur, Dikoydan fərqli olaraq, tacirlərin timsalında dini və ya mənəvi-etik cəhalətpərəstliyə sərt hökm çıxarılmır, lakin buna baxmayaraq, onlar da müəyyən "ictimai istedad" daşıyıcısıdırlar. Lakin,

burada tacirlər bir şəxs kimi məğlubiyyətə uğrayırlar, komedioqraflar yumşaq formada onlara rişxənd edirlər. Və bu halda biz M.F.Axundovun və N.B.Vəzirovun xəsislərini Molyerin eyniadlı komediyasındakı xəsis obrazı ilə müqayisə etmişik.

Bununla belə dissertasiyada bütün yuxarıda göstərilən yazıçıların – müxtəlif istiqamətlərin və cərəyanların nümayəndələrinin – yeniliklərinin ideya məzmunu təbii şəkildə üzə çıxarılmışdır. Bu ilk növbədə N.V.Qoqolun, A.N.Ostrovskinin, Onore Balzakın, M.F.Axundov və N.B.Vəzirovun və digərlərinin əsərlərində xəsis obrazının maksimal surətdə fərdiləşdirilməsindən ibarətdir (tipoloji olaraq burada yalnız gündəlik mənfəətə olan ehtiras qalır, lakin pul qazanmağın üsulları, qənaət, kapitalın saxlanılması və artırılması sonsuzdur, müxtəlifdir). Xəsis hətta sosial əhəmiyyətli problemlər sırasına qatılır və onu, nadir hallarda istisna olmaqla, cəmiyyətdən tamamilə ayırmaq mümkün deyil. Belə ki, Qarpagon hərdənbir sələmçilik ilə məşğul olur, amma bu onun həyatının əsas işi deyil. Bundan başqa, sələmçilik – komediyada öz gücünün saxlanılması üçün şərti formadır.

**Nəticədə** sözügedən tədqiqatın məzmunundan irəli gələn ümumiləşdirmə verilir və nəticələr çıxarılır.

1. Zənginləşmə motivi müxtəlif dövr avropa, rus və azərbaycan yazıçılarının bir sıra əsərlərinin əsas süjetini təşkil edir.

2. Xəsis obrazının folklor və bədii mənbəyi var. Antik dövrdən başlayaraq, o, müxtəlif janrlarda olan əsərlərdə öz əksini tapır. Xəsis obrazının ikili təbiətini nəzərə alaraq, bu obrazın dünya ədəbiyyatında arxetipik olması nəticəsinə gəlmək olar.

3. Xəsislik mövzusu dünya xalqlarının nağıllarında özünəməxsus şəkildə inkişaf edir. Əsas qəhrəman kimi müxtəlif təbəqəyə məxsus xəsis obrazı çıxış edir. Bu tacirlər, keşişlər, qazilər, kahinlər, ağsaqqallar və başqalarıdır. Bütün nağıllarda əsas fikir yoxsul insanın tamahkar və zalım insanın üzərində qələbəsidir.

4. Antik dövrdə (T.Plavt "Xəzinə") xəsislik mövzusu ilk növbədə, sosial ideologiyanı əks etdirirdi və Roma komedioqrafının fikrinə görə öz zamanının davranış qaydalarının düzəlməsini ifadə edirdi.

5. V.Şekspirin "Venesiyalı tacir" faciəsinin və J.-B.Molyerin eyniadlı komediyasının müqayisəsi zamanı aşağıdakı nəticəyə gəlmək olar: İntibah dövründəki xəsis obrazı incə psixoloji əlamətlərinə görə fərqlənir və onu Avropa ticarət-kommersiya fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil. Öz növbəsində Molyerin Qarpagonu belə mürəkkəb deyil. Lakin,

xəsis yalnız milli xarakter daşımır, o, ən əvvəl ümumbəşəri xarakterdir və tənqidçilərin, eləcə də oxucu kütləsinin tərəfindən asanlıqla başa düşülür.

6. Ç.Dikkensin "Dombi və oğlu" və O.Balzakın "Hobsek" romanlarında xəsis obrazının müqayisəsi zamanı fəlsəfi fikirlər yaranır. İngilis ədəbiyyatından fərqli olaraq, fransız ədəbiyyatında xəsis obrazının yalnız ictimai hadisələr və XIX əsrin birinci yarısında kapitalın inkişafı ilə sıx bağlı hesab edilməlidir.

7. Puşkinin xəsisinin mühüm fərqləndirici xarakteri var: rus şairinin ideyasına görə, o, ictimai-siyasi problemlərin spektrinə daxil deyil, lakin ailə dramın geniş ümumiləşdirmələrin məğzini təşkil edir.

8. N.V.Qoqolun "Ölü canlarında" Plyuşkin obrazı, ənənəvi rus tipi kimi verilmişdir və burada xəsisliyin insan xarakterini dəyişərək fiziki degenerasiyaya qədər gətirib çıxarması təsvir olunur.

9. A.N.Ostrovskinin "Tufan" dramında, M.F.Axundovun və N.B.Vəzirovun komediyalarında xəsis obrazını ümumi dominant xüsusiyyət – əsasən ticarət fırıldaqçılıqlarda özünü göstərən patoloji xəsislik hissi birləşdirir. Onlar Rusiya və Azərbaycanda öz dövrlərinin ictimai həyatın bir çox sahələrini əhatə edir və ətrafdakılara əziyyət və səfalət gətirirlər.

**Dissertasiya mövzusunda aşağıdakı əsərləri nəşr olunub:**

1.Азярбайъан ядябиййатында хясис образынын тясвири хцсусиййятляри (М.Ф.Ахундовун йарадыъылыьы ясасында) // Елми хябярляр. Бакы: АДУ, 2006, № 3, с.142-144.

2.М.Ф.Ахундовун йарадыъылыьында хясис образы // Аспирант вя эянъ тядгигатчыларын XI Республика елми конфрансы. Бакы, 2006, с. 242-243.

3.Н.Б.Вязировун йарадыъылыьында хясислик мювзусу // Елми хябярляр. Бакы: АДУ, 2008, № 2, с.274-277.

4.Гядим Рома драматурэийасында хясис суряти (Т.М.Плавтын «Хязиня» ясяри ясасында) // Елми хябярляр. Бакы: АДУ, 2010, № 1, с.62-65.

5.Тема скупости в русской летописной литературе XII-XVII веков // Филолоэийа мясяляляри. Бакы, 2010, № 11, с.394-401.

6.Возникновение архетипа «скупой» в мировой литературе // Мцгайисяли ядябиййат: ядябиййатларда вя

мядяниййятлярдя архетипляр. IV Бейнялхалг елми конфрансын материаллары. Бакы-Азярбайъан, 22-23 октйабр 2010, с. 8.

7.Ч.Диккенсин реализминин хцсусиййятляри («Домби вя оьлу» романы ясасында) // Докторантларын вя эянъ тядгигатчыларын XVI Республика елми конфрансы. Бакы, 2012, с. 178-179.

8.Типизация и индивидуализация образа скупого в азербайджанской, русской и европейской литературе // Вести Белорусского государственного педагогического университета. Серия 1, № 2(72), 2012, с. 96-99.

9.Формы стяжательства и методы обрисовки характера скупого в романах Оноре де Бальзака «Эжени Гранде» и «Гобсек» // Вестник Запорожского национального университета. Филологические науки, № 2, 2012, с. 5-8.

10.Архетип «скупого» в азербайджанских сказках // Щуманитар елмлярин юйрянилмясинин актуал проблемляри. Бакы: Мцтяръим, 2014, №4, с. 153-157

**Konul Abduraxman Telman**

## Character of greedy as archetype and it's modifikation in literature

### Summary

This dissertation work consists of introduction, two chapters, conclusion and list of used literature. In introduction the actuality of investigated theme, it's aim and purposes are based. The object of scientific research, it's subject, and scientific novelty, it's theoretical and practical importance are given. Besides, the method of work and approbation are given also.

First chapter is named **"The sources of Miser character creating and colors of it's artistic description in world. (from ancient period to classicistic period).** In this chapter several historical periods are embraced. Besides, different versions of misery and richness, exist in folklore creativity of different peoples are presented. The creativity of T.M. Plautus, who set that problem for a first time, the characters of Miser, created by W.Shakespeare and famous play writer J.-B.Moliere are studied in first chapter also.

The second chapter is named **"The character of Miser in realistic literature of XIX century."** In this chapter the specifics of Miser character in realistic literature is analyzed. In second chapter different literary works are studied. A.S.Pushkin's ("Miser Knight" small tragedy), N.V.Qoqol's (poem"Dead Souls"), M.F.Akhundov's (comedy "Haji Qara"), N.Vazirov's (comedy "Out of the Pan into the Fire"), A.N.Ostrovski's (drama "The Thunderstorm"), Ch.Dickens' (novel "Domby and Son"), Balzac's ("Qobseck") works are studied, the critical analyses of main heroes is presented. The aim of second chapter is to demonstrate the dynamic of Miser character in different writer's works, depending on their cost of mind.

In **conclusion** all ideas made in investigation are generalized.

Çapa imzalanıb: 13.03.2015
Format: 60x84 1/16.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail:* *mutarjim@mail.ru*